Aqrar Xidmətlər Agentliyi



Heyvanları

# BRUSELYOZ

xəstəliyindən necə qoruyaq?

## Bruselyoz heyvanların, eləcə də insanların, xronik gedişli yoluxucu xəstəliyidir

Xəstəlik törədicisinin əsas mənbəyi **xəstə** və **brusella daşıyıcı heyvanlardır**

Onlardan həssas sağlam orqanizmlərin yoluxması ətraf mühit keçiriciləri vasitəsilə **(yem, su, əşyalar, otlaq və s.)** və ya birbaşa **kontakt yolu** ilə baş verir

Əksər hallarda heyvanlarda xəstəlik latent **(gizli)** keçir. Qaramalda çox vaxt boğazlıqdan **4 ay** sonra müşahidə olunan balasalmalar baş verir

Balasalmadan sonra əksər heyvanlar **dölsüzləşir**



# Profilaktika və mübarizə vasitələri



Əsas **profilaktik tədbirlər** təsərrüfata törədicinin kənardan gətirilməsinin qarşısını almağa yönəldilməlidir

- Çox vaxt xəstəliyin törədicisi yeni alınan heyvanlar vasitəsilə daxil olduğundan belə heyvanlara **ciddi nəzarət edilməlidir**
- Törədici təsərrüfata həmçinin **yem** vasitəsilə də gətirilə bilər
- Xəstə heyvanlarla birlikdə **suvarma** və ya **otlama** zamanı da yoluxma mümkündür

- Xəstəlik baş verdikdə təsərrüfata **karantin qoyulur**
- **Tədbirlər planı** müəyyən edilir
- Ocağın söndürülməsi üçün ən etibarlı üsul – heyvanlar bütövlükdə **təcili kəsimə verilir** və təsərrüfatda bundan sonra müvafiq **dezinfeksiya** tədbirləri aparılır
- Bruselyozun spesifik profilaktikası üçün **vaksinlər** tətbiq olunur

Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A
Çağrı Mərkəzi 1652
info@axa.gov.az
www.axa.gov.az

Aqrar Xidmətlər Agentliyi